*UOT 37.01.*

***Tamilə Oqtay qızı Həsənova***
*Azərbaycan Əmək və Sosial Münasibətlər*
*Akademiyasının müəllimi,*
*https://orcid.org/0000-0002-3829-920X*
*E-mail: toma.hasan@mail.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).95-99

# AZƏRBAYCANDA VƏTƏNPƏRVƏRLİYİN TARİXİ İNKİŞAFI VƏ ONUN FORMALAŞMASI YOLLARI

***Тамилла Октай гызы Гасанова***
*преподаватель Академии Труда и Социальных Отношений Азербайджана*

# ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ПАТРИОТИЗМА В АЗЕРБАЙДЖАНЕ И ПУТИ ЕГО ФОРМИРОВАНИЯ

***Tamilla Oktay Hasanova***
*lecturer at the Academy of Labor and Social Relations*

# HISTORICAL DEVELOPMENT OF PATRIOTISM IN AZERBAIJAN AND WAYS OF ITS FORMATION

**Xülasə.** Məqalə vətənpərvərlik fenomeninin mənşəyi və fundamental əsaslarına, məqsədlərinə, dövlət və təhsil sisteminin qərarlarının, cəmiyyətin idarə edilməsinə həsr edilmişdir. Məqalədə Azərbaycan ərazisində qədim dövlətlər haqda mənbələrə əsaslanıb, Azərbaycan Xalq Cümhuriyyətinin və müasir Respublikanın sovetdən əvvəlki və sonrakı dövrünün maarifçi və ictimai xadimlərinin baxışları təqdim olunub. Vətənpərvərlik fenomeninin həmçinin, tarixi mənşəyi və kökləri açıqlanıb.

Vətənpərvərlik anlayışının tarix boyu formasiyaların dəyişməsindən asılılığı, siyasət və dövlətçilikdə yeri və rolu müəyyənləşdirilmişdir. Müasir ümumdünya ideologiyası, siyasəti vətənpərvərlikdən təcrid olunduğu dövlət tapmaq çətindir. Bu zamanda belə nəticəyə gəlirik ki, vətənpərvərlik anlayışı ümumi bir çərçivədə aşılanmır, bir çox amillərin təsirindən qaynaqlanır və dəyişir. Lakin, onu başqa bir çirkin əməllər üçün istifadəsi də çox pis tarixi faciələrə gətirə bilir.
***Açar sözlər:*** *vətənpərvərlik, dövlətçilik, müasir gənclər, tarix, tarixi amil, milli mənəviyyat, milli şüur, mənbə*

**Аннотация.** Статья посвящена зарождению феномена патриотизма и его основополагающим принципам, целям, решениям государства и системы образования для управления обществом. В статье на основе источников о древних государствах на территории Азербайджана представлены взгляды интеллигенции и общественных деятелей досоветского и постсоветского периода Азербайджанской Демократической Республики и современной Республики. Также объясняются историческое происхождение и корни феномена патриотизма.

Определена зависимость понятия патриотизма от смены формаций на протяжении истории, его место и роль в политике и государственности. Трудно найти государство, где современная глобальная идеология и политика изолированы от патриотизма. В это время мы приходим к выводу, что понятие патриотизма не вводится в общие рамки, оно возникает и изменяется под влиянием многих факторов. Однако использование его для других грязных и корыстных дел может привести и к очень плохим историческим последствиям.
***Ключевые слова:*** *патриотизм, государственность, современная молодежь, история, исторический фактор, национальная духовность, национальное самосознание, источник*

**Abstract.** The article is devoted to the origin of the phenomenon of patriotism and its fundamental principles, goals, decisions of the state and the education system for managing society. Based on sources

about ancient states on the territory of Azerbaijan, the article presents the views of the intelligentsia and public figures of the pre-Soviet and post-Soviet period of the Azerbaijan Democratic Republic and the modern Republic. The historical origin and roots of the phenomenon of patriotism are also explained.

The dependence of the concept of patriotism on the change of formations throughout history, its place and role in politics and statehood are determined. It is difficult to find a state where modern global ideology and politics are isolated from patriotism. At this time, we come to the conclusion that the concept of patriotism is not introduced into the general framework, it arises and changes under the influence of many factors. However, using it for other dirty and mercenary deeds can lead to very bad historical consequences.

***Key words:*** *patriotism, statehood, modern youth, history, historical factor, national spirituality, national identity, source.*

**Giriş.**

Vətənpərvərliyin mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır [14, s.118]. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də hallanır.

Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, inkişaf etmiş, torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətin inkişafı şəraitində vətənpərvərlik onun təkamülünün ümummilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir [6, s.15]. Rus mütəfəkkiri İliçev N.M. yazırdı: "Vətənpərvərlik hər bir insan, kollektiv, bütün ölkə üçün güclü tərəqqi mənbəyidir" [10].

Müasir gənclərdə vətənpərvərlik və milli mənəviyyatın təbliği və aşılanması məsələsinə xüsusi diqqət edilməlidir.

Prof. A.N. Abbasovun qənaətincə, "vətənpərvərlik çox yüksək və dərin insani hissdir. Vətənpərvərlər yetişdirmək məktəbin qarşısında duran başlıca vəzifələrdəndir. Vətənpərvərlik üzrə aparılan işlər gənc nəsildə vətənə sədaqət, onun nailiyyətlərini, müstəqillik və suverenliyini qorumaq hissləri formalaşdırılmasına yönəldilir. Milli mənlik şüuru və milli ləyaqət hissinin formalaşdırılması vətənpərvərlik tərbiyəsinin mühüm vəzifələrindəndir" (8, s. 190).

Vətənpərvərlik pedaqoji prosesdə tədris olunan bütün fənlərdə, mövzunun məqsədində yer tutmalıdır. Torpaqlarımızın işğaldan azad olunduğu bir vaxtda orta məktəblərdə, kollec, ali təhsil ocaqlarında milli şüur tərbiyəsinin aktual olduğunu müəllim kollektivi dərk edərək bu istiqamətdə sistemli tədbirlər keçirirlər. İctimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi, gənc nəslin vətəndaş kimi formalaşmasında mənəvi gücə malikdir. Vətənpərvərlik Vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, dövlətin müəyyənləşdirdiyi qayda və qanunlara şüurlu əməl etməkdə və əsas mahiyyəti gənclərin savadlı olmasında ifadə olunur.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin kəlamı böyük əhəmiyyət kəsb edir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Gənclərin mənəvi və vətənpərvərlik tərbiyəsi problemi V.V. Qavrilyuk, Çerednikov Q.A. [16], E.V. Proninanın, Yu.A. Zubokun [9], N.M. Muxtarovanın, L.N. Qasımovanın [4] və s. əsərlərində öz əksini tapmışdır.

**Əsas hissə.**

Vətənpərvərlik hər bir xalqın min illik tarixində ifadə olunan vətənə vurğunluq, öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. İqtisadi böhran şəraitində vətənpərvərliyin inkişafına, xalqın mənəvi yüksəlişinə, vahid vətəndaş cəmiyyətinin formalaşmasına yeni təkan verməyə çağırılır. Buna görə də vətəndaşların vətənpərvərlik tərbiyəsinin təşkilinə, onun nəzəri əsaslarına elmi əsaslandırılmış konseptual yanaşmaların işlənib hazırlanması təxirəsalınmaz vəzifədir.

Gendən gələn milli-mənəvi dəyərlər ana bətnində olarkən formalaşmağa başlayır, sonra kamilləşir [4, s. 8]. Vətənə sevginin, vətənpərvərliyin qədim kökləri var. Belə sübutlara Azərbaycan ərazisində mövcud olmuş qədim dövlətlərin yazılı mənbələrində rast gəlirik. Qədim yazılı mənbələrdən biri Salmanasarın e.ə. 843-cü il yürüşündə hazırladığı kitabəsində Mannanın ilk hökmdarının adın çəkir, Manna dövlətində bir necə şəhəri viran qoyduğundan bəhs edir [III Salmanasarın "Qara xatirə daşı" üzərindəki salnaməsi]. Düzdü, bu dövrün vətənpərvərliyi

hökmdara sadiqlikdə, onun bir kəlməsi ilə döyüşə atılmaqda, hökmdarın torpaqlarını qorumaqla müşahidə olunur. Vətənpərvərlik daha dərinləşir ərəblərin VII-ci əsrdən işğallara başlaması ilə. Bu dövrdə vətənpərvərlik artıq yadellilərdən ana torpağı xilas etmək, qorumaq kimi gündəmə gəlir, yerli dövlətçiliyini yaratmaqda öz əksini tapdı. Bu dövrün vətənpərvərliyi qonşu torpaqları zəbt etməkdə yox, öz sərhədlərini qorumaqla təcəssüm edir.

Hərb işində əsgərlərin bir-birinə inam və qayğısı, etibarı, torpaq uğrunda canından keçməyə hazır olmaları artıq tərbiyə işindən ortaya çıxırdı. Tədricən vətənpərvərliyin əsasını bu xüsusiyyətlər təşkil etdi.

Yadellilərlə savaşda milli qürur və milli şüur da vətənpərvərliyin bir hissəsinə qatıldı. Babəkin başçılığı altında baş vermiş üsyan (816-838) milli vətənpərvərliyin əsas sübutudur. Nəticəsi isə Xilafətin dağılmasına gətirib çıxarır.

XIII-cü əsrin əvvəllərində monqolların münbit torpaqlara böyük yürüşləri nəticəsində Azərbaycanda yenidən vətənpərvərlik ruhu yüksəkliyə qalxır. Bu dövrdə "Əcaib əd-dünya" əsərinin (XIII əsr) müəllifinin məlumatına görə əsas əhali türk tayfaları olub. Şihabəddin Nəsəvi yazırdı, ki Arranda yaşayan bu türkləri bir yerə toplasaydılar qarışqa və çəyirtkə yığnağını xatırladardılar [2, s.351]. Xalq ayağa qalxaraq, hökmdara sadiqlik yox, məhz öz rifahı, öz ana vətəni uğrunda mübarizəyə başlayır. Hülakülər dövlətinin yaranması ilə nəticələnsə də, Qazan xanın dövründə islam dini dövlət dini elan olunur. Məskunlaşmış monqol əsgər və sərkərdələri azərbaycan dilində danışır, yerli əhali ilə qaynayıb-qarışırlar [2, s. 352].

XVI-cı əsrin əvvəllərində yaranmış və iki yüz ildən çox tarixi meydanda öz mövqeyini saxlamış Azərbaycan Səfəvilər dövlətinin də vətənpərvərlik tarixçəsində xüsusi yeri var. Bu dövr etnik tərkib baxımdan Azərbaycan əraziləri türk mənşəli tayfaların üstünlüyü ilə müşahidə olunur. Səfəvi hökmdarları hərbi yürüşlərdə çox iştirak edirdi. Hərbi yürüşlərdə qarşılıqlı əsgər yardımı, yoldaşlıq, igidlik, qəhrəmanlıq tərbiyəsi həyata keçirilirdi. Bu keyfiyyətlər vətən-dövlətçilik adından aşılanırdı. "Ölümə hörmətsizlik və nifrət" kimi cəhət xüsusi diqqətlə vurğulanırdı. Hərbi vətənpərvərlik daha çox təbliğ olunurdu. Dövlət öz hərbçilərinin arasında vətənə və hökmdara bağlılığını təbliğ edirdi. Bu da vətənpərvərliyin bir nümayişidir. K.V.Trever və Z.Bunyadovun əsərlərində əsasən bu dövr, yəni orta əsrlər Azərbaycan tarixinin məsələləri araşdırılmışdır [2, s. 12].

Azərbaycanın iki hissəyə parçalanması, Cənubi və Şimali Azərbaycan anlayışlarının meydana gəlməsi vətənpərvərlik anlayışına da təsir göstərir. "Vətən naminə, İnam naminə və Çarımız naminə" postulat üstələyir. Belə ki, şimal ərazilərdə çarizmin yürütdüyü siyasət, etnik tərkibə müdaxilə, başqa xalqların köçürülüb bu ərazilərdə yerləşdirilməsi, dini müdaxilə öz təsirini göstərdi: vətənpərvərlik kimi bir fenomenin öz həqiqi mənasında, qeyri-şərti və bu dövrün adət-ənənələri nəzərə alınmaqla təzahürünün bariz nümunəsinə çevrildi.

Çar rejiminə qarşı mübarizə xalq arasından çıxmış maarifçilərin müasir dövlətçilik fikirləri vətənpərvərliyin yeni istiqamətinə təkan verdi [5]. 1918-ci ilin mayında Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnən vətənpərvərliyi nümunə çəkmək olar. Yaranmış bu demokratik dövlətin əsasını vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq, bərabərlik təşkil edir, hətta qadınlara siyasi hüquqlar verilir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə vətənpərvərlik də başqa bir sima alır: sovet patriotizmi. Artıq millət, dövlətçilik, az saylı xalqların təcrid olunması adiləşir, ruslaşma siyasəti və sovet ideologiyası təbliğ olunur, çərçivədən kənar düşüncə "xalq düşməni", "vətən xaini" damğası ilə cəzalandırılır. Bu ideologiya 70 ildən artıq yeridilsə də, XX əsrin sonları bütün sovet məkanında yaşayan xalqlar öz müqəddəratını müstəqil müəyyən etmək hüququ uğrunda mübarizəyə qalxır. Mübarizənin nəticəsində Azərbaycan müstəqil dövlətə çevrilir.

Vətənpərvərliyin ən yüksək zirvəsi Birinci və İkinci Qarabağ müharibələri: şəhid və qazilərimiz!

Müasir dünyada ideologiyanın, siyasətin vətənpərvərlikdən təcrid olunduğu dövlət tapmaq çətindir. Hər hansı ideologiyanın təhlili vətənpərvərlik anlayışına gətirib çıxarır. Vətənpərvərlik anlayışına qoyulan mənanın bilavasitə konkret tarixi dövrdən, hadisədən bir mənalı asılı olduğunu nəzərə alaraq, müasir gənclərdə vətənpərvərlik tərbiyəsi xüsusi aktuallıq və əhəmiyyət dərəcəsi ilə xarakterizə olunur.

Təhsil müəssisələri sistemində beynəlxalq vəziyyətin mürəkkəbləşməsi, qlobal terror təhlükəsi, gənclərin həyata, Vətənin müdafiəsinə mə-

nəvi-psixoloji hazırlığının əhəmiyyətinin artması, vətənpərvərlik tərbiyəsi təhsil prosesinin ayrılmaz hissəsinə çevrilir. Bu bütün dünya ölkələri miqyasında müşahidə olunur.

Müasir gənclərdə bütövlükdə tərbiyə işində müəyyən boşluqlar olmasına baxmayaraq, yetişməkdə olan gənc nəslin vətənpərvərlik hisslərinin və milli şüurun formalaşması ilə əlaqədar aparılan təlim-tərbiyə işi barədə yazmamaq ədalətsizlik olardı. “Azərbaycan gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramının təsdiq edilməsi haqqında qanunda: **“**Qloballaşma dövründə milli maraqlara və milli dəyərlərə əsaslanan, beynəlxalq təcrübəni nəzərə alan Azərbaycan dövlətinin gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir. Bunun nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilmişdir” [1].

Buna dəstək Gənc Vətənpərvərlər Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə köməyi ilə “Gənclər arasında vətənpərvərlik tərbiyəsinin təşviqi” adlı layihə hazırlanmış və Bakı şəhər Nəsimi rayon 111 saylı tam orta məktəbdə həyata keçirilmişdir. Belə tədbirlərə təhsil sistemində artıq çox yer ayrılır.

"Cəsurlar", "Şahinlər" kimi oyunların keçirilməsində də məqsəd şagirdlərdə cəsarəti, çəldliyi, mübarizliyi, qələbə çalmaq uğrunda iradə möhkəmliyinin təmin olunmasını öyrətməkdir. Bu cür oyunlar məktəblərdə mütəmadi olaraq təşkil olunur. Bu işdə Elm və Təhsil və Gənclər İdman Nazirliklərinin, eyni zamanda bir sıra qeyri hökumət təşkilatlarının iştirakı var [6]. Sözügedən yarışların son zamanlarda kütləviliyinin artırılması diqqətə layiqdir. Bu müasir gənc nəslin tərbiyəsində böyük rol oynayır. Onlarda şüuraltı vətənpərvərlik hisslərini oyadır.

Bu proses təkcə Azərbaycanda müşahidə olunmur. Vətənpərvərlik dünya miqyasında təbliğ olunan bir sistemdir. Amerika Birləşmiş Ştatlarında dövlət bayrağının minik maşınlarına sançılması belə vətənpərvərliyin nümayişidir. Rusiya Federasiyasında vətənpərvər olmaq artıq qanun çərçivəsində mütləqdir [5]. Türkiyədə milli mənlik vətənpərvərliyin təzahürü kimi qələmə verilir.

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biridir. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Torpaqlarımızın işğaldan azad olunub qorunmasının təşkili gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün qurulması daha böyük aktuallıq kəsb edir. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də şagirdlər üçün tərbiyə məktəbidir.

Məktəblərin qarşısında gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul vəzifələr qoyulması təsadüfi deyil. Buna görə də, Azərbaycan dövləti xalqını, onun gənclərini həmişə sayıq olmağa, vətənimizin qüdrətini hər vasitə ilə möhkəmləndirməyə, onun müdafiə bacarığını artırmağa çağırır. Bu məqsədə nail olmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa, məhəbbət tərbiyə etməli, onlarda vətən qarşısında şərəf və borc hissini qüvvətləndirməlidir. Vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aparılması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsullar meydana çıxarıb. Bir çox məktəblərdə "Döyüş şöhrəti” muzeyləri, [19] guşələr yaradılır, məktəblərdə fəaliyyət göstərən dərnəklərdə Qarabağ müharibəsində iştirak etmiş qəhrəmanların xatirələrini əbədiləşdirmək üçün geniş işlər aparılır [18]. Pedaqoji kollektiv vətənpərvərlik tərbiyəsinin hər üsullarından istifadə etməklə çalışır ki, şagirdlərdə bu hissi daha da qüvvətlənsin, həqiqi vətənpərvərliyin məzmununu onlar düzgün dərk edə bilsin [11, s.48].

Qəhrəmanların həyatı, qəhrəmanlıqları haqqında söhbətlər uşaqlarda vətənə məhəbbət, dəyanət, qəhrəmanlıq, möhkəm yoldaşlıq, dostluq, sədaqət və başqa nəcib xüsusiyyətləri tərbiyə etməyə kömək edir. Həyatda hər şeydən əziz olan ana vətənlə bağlı hər bir tapşırıq onun gənc övladları üçün ən şərəfli və ülvi bir vəzifədir [6].

**Nəticə.**

Vətənpərvərlik anlayışının açıqlamaları çox olduğundan dəqiq bir ifadə yoxdur, bu da mövzunu hər zaman aktual edir. V. Belov yazır: “Yaddaşdan kənarda, tarix və mədəniyyət ənə-

nələrindən kənarda şəxsiyyət yoxdur. Yaddaş insanın mənəvi yetkinliyini formalaşdırır" [7]. Yəni, nəsildən nəslə ötürülən nəsihətlər arasında vətənpərvərlik daim ön cərgədə olmalıdır.

Bu gün ölkəmizin gələcəyi məhz gənc nəslin necə yetişməsindən, onların milli-mənəvi şüurunun hansı formada inkişaf etdirilməsindən, vətənpərvərlik hisslərinin necə tərbiyə edilməsindən asılıdır. Bu missiyanı davam etdirmək və inkişafını təmin etmək isə, təkcə valideynin və məktəbin işi olmayıb, hər bir vətənpərvər vətəndaşın borcudur [17].

Belə bir nəticəyə gəlirik:

1. Vətənpərvərliyin tərkib hissəsi müasir dünya elminin və mədəniyyətinin əsasını təşkil edən, uzun minilliklər ərzində formalaşmış yüksək amala qulluq edən ideyalardır.

2. Vətənpərvərlik həmişə şücaət, qəhrəmanlıq mənbəyi, bir-birinə dayaq, dövlətin gücünün mövcudluğun zəruri şərti kimi qəbul edilib. Onun əsasında vətənə əsl məhəbbət, vəfa və sədaqət, tarixi keçmişlə qürur hissi, vətənin və xalqın şöhrəti naminə yaşamaq, işləmək və oxumaq istəyi dayanır.

3. Xalqın mənafeyini qorumağa və müharibə şəraitində olan dövlətini əlində silah müdafiə etməyə daim hazır olmağı nəzərdə tutur. Vətənpərvərlik donmuş və ya inkişafdan qalmış keyfiyyət sayıla bilməz, o, hər bir insanda həm təlim-tədris ocaqlarında, həm də ailədə məqsədyönlü tərbiyə prosesi zamanı formalaşır.

4. Vətənpərvərlik dövlətin çətin dövrlərində əhaliyə, onun möhkəmlənməsinə təsir edən əsl ideoloji-siyasi vasitə kimi istifadə olunub və istifadə olunaçaq. O, həmçinin öz məqsədləriniz üçün, konkret məqsədlərə nail olmaq və çətin dövrlərdə həssas məsələləri həll etmək üçün istifadə edilə bilər.

5. Vətənpərvərlikdən şərəf, qanun, vəzifə, əqidə və əxlaq hüdudlarından kənara çıxan məqsədlər üçün istifadə oluna bilməz, bunun uzunmüddətli təzahürləri olan ağır nəticələri ola bilər ki, bunu tarix də təsdiq edir.

**Ədəbiyyat:**


1. "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı
2. Z.M. Bünyadovun və Y.B. Yusifovun redaktəsilə "Azərbaycan tarixi. I cild. Bakı, 2011
3. Tahirzadə Ə. "Azərbaycan cümhuriyyəti" – ilk milli dövlətimizin gerçək adı!. Bakı: Çapar Yayınları. 2020. ISBN 978-9952-8356-8-7.
4. Qasımova L.N. Məktəblilərin milli- mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, 2004, 220 s.
5. В. Быков. Лад. Очерки о народной эстетике. -Москва, 1992, Э с.5.
6. "Olaylar"-2015.14 aprel - № 63.S.15, Bakı, 2015
7. Белов, «Вестник Российского философского общества» (2003, №3, с.88-89)
8. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, 2022. - 464 s.
9. Зубок Ю.А. Традиционное и современное в социально-политических идентификациях молодежи // Власть. 2014. Т. 22, № 11. С. 39–42.
10. Проблемы материалистической диалектики: о мировоззренческой и методологической функциях диалектики. М., 1981,
11. «Как учителя в Азербайджане понимают свой профессионализм в контексте образовательных реформ», Азербайджан Школа. -Баку, 2016. -с. 47-56.
12. Кабинет Министров Азербайджанской Республики (3 июня 2017 г.). Национальные стандарты и учебные программы среднего образования. Азербайджанская Республика. [Постановление № 103]. Доступно в интернете http://kurikulum.az/index.php?option=com_ content&view=article&id=136&Itemid=215&lang=az
13. Константиновский Д. Л., Вознесенская Е. Д., Чередниченко Г. А. Молодежь России на рубеже XX–XXI веков: образование, труд, социальное самочувствие. -М.: ЦСП и М, -2014. -548 с
14. Корж Н.В. Основные направления формирования патриотического сознания студенческой молодежи: региональный аспект // Власть. 2021. № 1. -с. 123–130
15. Ожегов С.И., И.Ю. Шведова, Толковый словарь русского языка, Оникс, М-2010
16. Чередниченко Г.А. Система образования и пути молодежи // Россия реформирующаяся: ежегодник / отв. ред. М. К. Горшков. -М.: Новый хронограф, -2017. Вып. №15. -568 с.
17. https://525.az/news/205936
18. https://azertag.az/xeber/Agdamdaki_Doyus_Sohreti_Muzeyi_
19. https://azertag.az/print/1721901///


**Redaksiyaya daxil olub:** 17.01.2025